*Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.*

# Yeni YOL

31 DEKABR 2022-Cİ İL № 024 (171)

İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

## TÜRKİYƏNİN MÜDAFİƏ NAZİRİ: “YAŞASIN TÜRKİYƏ-AZƏRBAYCAN-GÜRCÜSTAN ƏMƏKDAŞLIĞI”



“Türkiyə, Azərbaycan və Gürcüstan arasında hərbi sahədə əməkdaşlığın güclənəcəyinə əminəm”. Bunu Türkiyənin milli müdafiə naziri Hulusi Akar azərbaycanlı və gürcüstanlı həmkarları ilə keçirilən üçtərəfli görüşdən sonra jurnalistlərə açıqlamasında deyib.

O bildirib ki, Türkiyə bu əməkdaşlıqdan məmnundur: **“Yaşasın Türkiyə-Azərbaycan-Gürcüstan əməkdaşlığı”.**

Dekabrın 21-i Türkiyənin Kayseri şəhərində Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov, Türkiyənin milli müdafiə naziri Hulusi Akar və Gürcüstanın müdafiə naziri Caunşer Burçuladze arasında baş tutmuş görüşdə üçtərəfli formatda əməkdaşlığın inkişaf etdirilməsi, regional layihələrin təhlükəsizliyinin təmin olunması və qarşılıqlı maraq doğuran məsələlər müzakirə edilib.

## BAŞ NAZİR: “ABXAZİYA İKİNCİ MONAKO, SUXUMİ İSƏ İKİNCİ MONTE KARLO OLA BİLƏR”



Gürcüstan hökuməti işğal altında olan Abxaziya və Samaçablo (Tsixinvali) bölgəsinə 10 milyard ABŞ dolları maliyyə ayırmaq niyyətindədir. Bu barədə Gürcüstanın Baş naziri İrakli Qaribaşvili dekabrın 27-də hökumətin illik hesabatını təqdim edərkən məlumat verib.

Onun sözlərinə görə, Abxaziya və Tsixinvali Gürcüstana yenidən birləşsə, hökumət bu bölgələrə 10 milyard dollar həcmində sərmayə yönəldəcək.

“Bizim siyasətimiz sülhpərvərdir, biz yaraları sağaltmaq istəyirik. Mən isə deyirəm ki, ölkəmiz vahid olsa, ilk üç ildə Abxaziyaya, eləcə də Samaçabloya (Sxinvali bölgəsi) təxminən 10 milyard sərmayə yatıra bilərik. Abxaziya ikinci Monako, Suxumi isə ikinci Monte Karlo olacaq”, – deyə Baş nazir bildirib.

Onun sözlərinə görə, hakimiyyətin əsas prioriteti işğal olunmuş rayonlara münasibətdə sülhsevər siyasətin davam etdirilməsi və barışıq proqramlarının həyata keçirilməsidir.

“Məqsədimiz münaqişədən zərər çəkmiş əhalinin sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmaq, əməkdaşlığı inkişaf etdirmək və etimad mühitini yaratmaqla süni şəkildə parçalanmış cəmiyyətləri barışdırmaqdır”, – deyə İ.Qaribaşvili qeyd edib.

O, nümunə kimi ötən il işğal olunmuş ərazilərdən 230 tələbənin Gürcüstanın ali məktəblərinə qəbul olunmasını, 1 300-dən çox insanın tibbi yardım almasını göstərib.

“Bu faydalar gələcəkdə də davam edəcək. Bizim siyasətimizə yenidən baxılmayacaq, biz, sadəcə olaraq, münaqişəni sülh yolu ilə həll etmək, o dəhşətli faciənin nəticələrini aradan qaldırmaq istəyirik. Məqsədimiz budur ki, hamımız vahid, güclü, avropalı Gürcüstanda birlikdə yaşayaq”, – deyə hökumət başçısı vurğulayıb.

Səh. 2 ÖMRÜMÜZDƏN BİR İL DƏ KEÇDİ - Hacı Bəkiroğlu yazır

Səh. 3 BÜTPƏRƏSTLİYİN GÖRÜNMƏYƏN VERSİYASI - Lamiyə Hacıyeva yazır

Səh. 4 DİREKTORLAR ÜÇÜN İMTAHAN TƏXİRƏ SALINIB

Səh. 4 MƏKTƏBLƏRDƏ PUL TOPLAMAQ HANSI HALDA YOLVERİLƏNDİR?

Səh. 5 SEMESTR QİYMƏTLƏRİ - Çiyalə Osmanova yazır

Səh. 5 BAYRAM - Aytən Fətullayeva yazır

Səh. 6 TÜRKDİLLİ XALQLARIN ƏXLAQİ-ESTETİK ALƏMİ - Elizbar Cavelidze

Səh. 7 NİDERLAND – PƏRDƏ ARXASINDAKI GERÇƏKLƏR - Afiq Muxtaroğlu yazır

## AVROPA PARLAMENTİNİN DEPUTATI: “SAAKAŞVİLİ HƏBSXANADA ÖLƏRSƏ GÜRCÜSTAN AVROPA İTTİFAQINA HEÇ VAXT DAXİL OLA BİLMƏYƏCƏK”





Mixeil Saakaşvili həbsdə ölərsə Avropa Parlamenti Gürcüstanın Avropa İttifaqına (Aİ) üzv olmaq istəyini təsdiq etməyəcək. Bu barədə qanunverici orqanın aparıcı fraksiyasını – Avropa Xalq Partiyasını təmsil edən polşalı deputat Yatsek Sariuş-Volski özünün tviter səhifəsində yazıb.

Onun sözlərinə görə, M.Saakaşvili ilə Gürcüstanın Aİ-yə daxil olması perspektivləri arasında önəmli məsələlər var.

Bununla Avropa “Mühafizəkarlar və islahatçılar qrupu”nun üzvü hakim “Gürcü arzusu” liderlərinin “Saakaşvili ilə ölkənin Avropa perspektivi arasında paralellər aparmağın yersiz olması” barədə sözlərinə münasibət bildirib.

“Saakaşvili ilə Gürcüstanın Aİ-yə daxil olması perspektivləri arasında paralellər imperatividir. Bu hallar bir-birindən ayrılmazdır. Keçmiş prezident həbsdə qalacağı və həbsdə öləcəyi təqdirdə Avropa Parlamenti heç vaxt Gürcüstanın Aİ-yə üzvlüyünə səs verməyəcək”, - deyə avropalı parlamentari qeyd edib.



# ÖMRÜMÜZDƏN BİR İL DƏ KEÇDİ

Hacı BƏKİROĞLU
hacihaciyev@hotmail.com

Növbəti bir ili də yola saldıq – yaxşısı ilə, pisi ilə. Neçə-neçə sevdiklərimizi də bu ildə əbədi yolçuluğa uğurlayıb yeni ilə onlarsız giririk. Bilmək olmaz, bəlkə bu ili də bizsiz növbəti ilə girənlər olacaq.

Nə isə, qayıdaq başa, sözümüzün canına. Görəsən bu ili uğurlayarkən hansı təəssüratları yaşadıq? Hesabatımızın nəticəsi nə oldu? Bir öncəki ilin sonunda gələn il üçün planladığımız işləri nə dərəcədə həyata keçirdik? Əsasən də cəmiyyət üçün, insanlıq üçün nələri miras buraxdıq? Bu mirasımız insanların faydalanacağı dərəcədə yaxşılıqlar, gözəl əməllərmi oldu, yoxsa dünyalıq həvəsinə qapılaraq mal-mülkmü yağmağa çalışdıq? Unutmamalıyıq ki, bu hesabat bizim öz vicdanımıza verdiyimiz bir hesabatdır, əsl hesabat isə məhşər günü Yaradana verəcəyimiz hesabat olacaq. Bunun üçün də elə etməliyik ki, vicdanımızın rahat olacağı, cəmiyyətin və insanlığın hər zaman bizi xoş xatirələrlə, razılıqla anacağı işlər görərək sədəqeyi-cariyə olan gözəl miraslar buraxaq.

Yeni ili qarşılayırıq, çox gözəl (Allah hər birimizə dəyərini biləcəyimiz, gözəl işlər və əməllər görəcəyimiz bir il etsin gələn bu ilimizi)! Düşünmürük ki, ömrümüzdən bir il də keçdi, ömrümüz bir il daha azaldı. Yox, niyə pis fikirlərə düşməliyik axı? Niyə ölümü düşünməliyik? Yaşamaq gözəldir, gözəl düşünməliyik. Düşün anam, düşün bacım, düşün qardaşım. Ancaq ölüm həqiqətini də unutma lütfən. Unutma ki, bu düşüncə səni dünya düşkünü olmaqdan, mal hərisliyindən, zülm etməkdən, onun-bunun namusuna göz dikməkdən uzaqlaşdırıb insanlara faydalı bir insan olmağına köməkçi olsun. Kimə deyirsən axı, kimdir səni dinləyən. Yenə hərə öz işindədir.

Girirsən mağazaya kassa sırası sənə gələnə kimi saatlar keçir. Hər kəs bayram sevdası ilə düşür küçələrə – imkanı olan da, olmayan da. Hə, imkanı olmayan necə gedir mağazaya deyəcəksiniz, onlar da asan yolunu tapıblar, kimsənin minnətini götürməmək üçün ən asan yol olan bankın qapısını döyürlər. Orasını düşünmürlər ki, atalarımız deyib “nisyə yeyən iki dəfə keflənir”. Bu həyəcanla, bu təlaşla bankdan birbaşa keçirlər alış-veriş mərkəzinə, məhsulun harada bahalısı varsa onu alırlar. Bayram deyərək ömürdən verdikləri illərin keyfini çıxardıqdan sonra bankın mesajını alıb ikinci dəfə keflənirlər, bax bu olur əsl bayram təntənəsi. Bir düşünən yoxdur ki, bayramı reklam edənlər oturub evində sənin hesabına pul qazanır, sən də başlayırsan sonra kredit ödəməyə. Deyirsən ki, ay eloğlu, qurban bayramıdır, qurban kəsmək lazımdır, o dəqiqə dəsmalını çıxarıb elə vay-şüvən qoparır ki, mənim pulummu var qurban kəsəm deyə. Ay gözəl insan, bunu yeni ili qarşılayarkən də düşünsən gözəl olmazmı? Heç bir məna ifadə etməyən şam ağacına, onun bər-bəzəyinə, süfrəsinə, fişənginə, nə bilim nəyinə bir ətək pul xərcləyəndə bunu fikirləşsən gözəl olmazmı?

Bir kimsəyə kömək lazım olanda, yardım yığılanda kimsənin əli cibinə çatmır, ancaq içki süfrəsinə, boş yerlərə son qəpiyi belə olsa verir, düşünmür ki, Allah bizdən ehtiyac sahiblərinin qarnını doydurduğumuz təqdirdə razı qalır.

Bəli, əzizlərim, gəlin hər zaman xeyir işlər görmək üçün çalışaq və vaxtımızın dəyərini bilərək ömrümüzdən gedən günlərin hesabını görək, vaxtımızı boşa xərclədiyimiz üçün sevinmək yerinə özümüzü hesaba çəkək.

## QARA DƏNİZİN DİBİ İLƏ ENERJİ KABELİNİN ÇƏKİLMƏSİ 2-3 MİLYARD ABŞ DOLLARINA BAŞA GƏLƏCƏK



Qara dəniz sualtı elektrik enerjisi kabeli layihəsinin həyata keçirilməsi 2-3 milyard ABŞ dollarına başa gələcək. Bu barədə Baş nazir İrakli Qaribaşvili bildirib.

O, layihənin Gürcüstanın təşəbbüsü olduğunu və kabelin uzunluğunun 1 100 kilometr olacağını deyib.

Bu layihənin “ikinci Bakı-Tbilisi-Ceyhan layihəsi” olduğunu vurğulayan hökumət başçısı işlərə tezliklə başlanacağını bəyan edib.

Qeyd edək ki, dekabrın 17-də Rumıniyanın paytaxtı Buxarestdə “Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş” imzalanıb. Sazişə əsasən, Gürcüstan və Qara dəniz vasitəsilə Azərbaycandan Rumıniyaya elektrik enerjisi kabeli çəkiləcəkdir.

## ÜÇÜNCÜ VƏ SONRAKI HƏR DOĞULAN UŞAĞA GÖRƏ 1000 LARİ VERİLƏCƏK



2023-cü ildən etibarən hökumət hər üçüncü və sonrakı yeni doğulacaq uşaq üçün 1000 lari məbləğində birdəfəlik yardım verəcək. Bu barədə Baş nazir İrakli Qaribaşvili 2022-ci ilin hesabatını təqdim edərkən bildirib.

Onun sözlərinə görə, sosial cəhətdən həssas uşaqların aylıq müavinəti də artırılacaq.

“Biz imkan daxilində sosial cəhətdən həssas uşaqların aylıq müavinətini artırmışıq. 2012-ci ildə bu yardım sıfır olub, sosial cəhətdən həssas uşaqlara heç bir yardım göstərilməyib. Biz bu yardıma əvvəlcə 50 lari ilə başladıq, sonra bu rəqəm 100 lari, ötən il isə 150 lari oldu. 2023-cü ildə isə hər uşağa 200 lari veriləcək və bu layihə büdcəyə 465 milyon lariyə başa gələcək; ümumilikdə 232 min uşağa aylıq 200 lari yardım veriləcək”, - deyə Baş nazir bildirib.

## HÖKUMƏT SƏHİYYƏ İŞÇİLƏRİNİN ƏMƏKHAQLARI İLƏ BAĞLI QƏRAR QƏBUL EDİB



Hökumətin qərarına əsasən, həkimlərin minimum əməkhaqqı 1 260 lari, tibb bacılarının minimum əməkhaqqı isə 792 lari təyin edilib. Bu barədə Gürcüstanın səhiyyə naziri Zurab Azaraşvili məlumat verib.

Nazir qeyd olunan məbləğin minimum olduğunu və dəyişə biləcəyini deyib.

“Çox az əməkhaqqı alan xeyli sayda həkim və tibb bacısı var. Biz bunu bir neçə aydır ki, dövlət klinikalarında pilot layihə kimi inkişaf etdiririk. Hökumətin qərarına əsasən, tibb bacılarına 792 lari, həkimlərə isə 1 260 lari əməkhaqqı təyin edilib. Fərziyyələr var ki, guya biz sabit əməkhaqqı təyin etmişik və bu, həkim və tibb bacılarının gördüyü işlərlə müqayisədə aşağıdır. Təbii ki, aşağıdır, lakin bizim təyin etdiyimiz əməkhaqqı minimumdur və dəyişə bilər”, - deyə Z.Azaraşvili bildirib.

## TÜRKİYƏ GÜRCÜSTANA MÜXTƏLİF NÖV TEXNİKA VERİB



Gürcüstanın Müdafiə Nazirliyinin yaydığı məlumata əsasən, Türkiyə Cümhuriyyəti aviasiya və hava hücumundan müdafiə imkanlarının təkmilləşdirilməsi məqsədilə Gürcüstanın Müdafiə Qüvvələrinə 200 min ABŞ dolları dəyərində müxtəlif növ texnika verib.

Marneuli aerodromunda təhvil vermə mərasimində Gürcüstanın müdafiə nazirinin müavini Qriqol Giorqadze, Müdafiə Qüvvələri komandanının müavini, briqada generalı İrakli Çiçinadze və Türkiyənin Gürcüstandakı fövqəladə və səlahiyyətli səfiri Ali Kaan Orbay iştirak ediblər.

Texnikanın ötürülməsi haqqında protokolu Aviasiya və Hava Hücumundan Müdafiə Komandanı polkovnik Serqo Ninua və Türkiyənin müdafiə attaşesi polkovnik Burak Altıner imzalayıblar.

Qeyd edək ki, texniki vasitələrin Gürcüstana verilməsi Türkiyə ilə imzalanmış hərbi-maliyyə əməkdaşlığı sazişi çərçivəsində həyata keçirilib.

## TBİLİSİDƏ AŞIQ KAMANDARIN 90 İLLİK YUBİLEYİ QEYD OLUNUB




Tbilisidə XX əsr Azərbaycan aşıq sənətinin görkəmli nümayəndələrindən biri, Borçalı aşıq məktəbinin yetirməsi olan ustad aşıq Kamandar Əfəndiyevin anadan olmasının 90 illik yubileyinə həsr olunmuş tədbir keçirilib. Tədbir Azərbaycan Respublikasının Diaspor Komitəsinin, Azərbaycanın Gürcüstandakı səfirliyinin və Azərbaycan Diasporunun İnkişafına Dəstək Fondunun birgə təşkilatçılığı ilə reallaşıb.

Tədbirin aparıcısı professor Mahmud Hacıxəlilov aşıq Kamandarın həyat və yaradıcılıq yolundan söhbət açıb. Bildirib ki, 1932-ci ildə Borçalıda – indiki Marneuli rayonunun Kəpənəkçi kəndində dünyaya gələn aşıq Kamandar fitri istedadı sayəsində qısa müddətdə özünəməxsus, bənzərsiz ifa tərzi ilə Azərbaycanda və bütün türk dünyasında sevilən sənətkara çevrilib. Öz sənəti ilə böyük el məhəbbəti qazanan aşıq Kamandarın sənətdəki xidmətləri dövlət tərəfindən də yüksək qiymətləndirilib, o, Gürcüstanın “Şərəf” ordeninə layiq görülüb. Doğma yurdunda ev-muzeyi yaradılıb, büstü ucaldılıb.

Sonra böyük ustadın keçdiyi ömür yolundan bəhs edən videoçarx nümayiş etdirilib.

Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev çıxış edərək aşıq Kamandar yaradıcılığının ayrı-ayrı hissələrinə nəzər salıb, onun yaradıcılığında vətənə, xalqa, millətə sevginin onun yaradıcılığının əsas süjet xəttini təşkil etdiyini vurğulayıb. Diplomat deyib ki, aşıq Kamandarın yaradıcılığındakı vətənpərvərlik hissi bu gün də dünya azərbaycanlılarının birliyinə və həmrəyliyinin möhkəmlənməsinə xidmət edir.

Sonra Türkiyə səfirliyinin məsul əməkdaşı Onur Sevim, Gürcüstan parlamentinin sabiq deputatı Ruslan Hacıyev, TİKA-nın Gürcüstan nümayəndəliyinin rəhbəri Tuba Özütok və başqaları çıxış edərək aşıq Kamandar yaradıcılığından söz açıb, fikirlərini bölüşüblər.

Aşıq Kamandarın oğlu Əflatun Əfəndiyev ailəsi adından çıxış edərək tədbirin təşkilatçılarına və bütün iştirakçılara öz təşəkkürünü bildirib.

Tədbir Borçalı aşıq məktəbinin yetirmələrinin ifaları ilə başa çatıb.

*Mənbə: AZƏRTAC*

## “SOCAR” FƏRQLƏNƏN TƏLƏBƏLƏRƏ PUL MÜKAFATI VERİB

Azərbaycan Respublikasının Gürcüstandakı səfirliyinin və “SOCAR”ın Gürcüstandakı nümayəndəliyinin birgə təşkilatçılığı ilə “SOCAR”ın Tbilisidəki baş ofisində Gürcüstanın ali təhsil müəssisələrində təhsil alan azərbaycanlı tələbələrlə görüş keçirilib.

Görüşdə Azərbaycanın Gürcüstandakı fövqəladə və səlahiyyətli səfiri Faiq Quliyev və “SOCAR”ın Gürcüstan nümayəndəliyinin rəhbəri Mahir Məmmədov çıxış edərək gəncləri təbrik ediblər.

Tədbirdə “1+4” proqramı çərçivəsində Gürcüstanın ali təhsil müəssisələrində təhsil alan və tədris ili ərzində 100 bal toplayan 1 nəfər tələbəyə 2000 lari, qiymətləri 95 baldan yüksək olan 16 nəfər tələbəyə 1 500 lari və 10 nəfər tələbəyə 500 lari məbləğində pul mükafatı verilib.

Görüşdə həmçinin “1+4” proqramı çərçivəsində “SOCAR”ın Gürcüstandakı nümayəndəliyinin həyata keçirdiyi təqaüd layihəsinin optimallaşdırılması məsələləri və tələbələri maraqlandıran digər suallar müzakirə edilib, sənəd qəbulunun avtomatlaşdırılması məqsədilə yeni yaradılmış tələbə portalı təqdim olunub.

# BÜTPƏRƏSTLİYİN GÖRÜNMƏYƏN VERSİYASI

Bu dəfə qələmə alacağım mövzu cəmiyyətdə görünməyən, ancaq fəsadlarının yayıldığı problemlərdir. Bütpərəstlik deyilən bir inancın var olduğu haqqında az-çox hər kəsin məlumatı var deyə düşünürəm. Yenə də qısa bir cümlə ilə ifadə etmək istəyirəm: bütpərəstlik əllə tutulan, gözlə görülən hər hansı bir əşyaya yaradıcı olaraq inanıb sitayiş etmək deməkdir. Günümüzdə bəlkə bu kimi şeylərə bölgəmizdə rastlaşmasaq da, ancaq gözlə görülməyən, insanın büt halına gətirdiyi bəzi məqamlar, əşyalar və s. var.

Bu gün ən yaralı yerimiz olan, cəmiyyətimizə mənfi təsir edən şeylərdən biri də məhz budur. Günümüzdə insanlar öz bütlərini özləri seçirlər. İnanacaqları, sitayiş edəcəkləri bütləri özləri meydana gətirirlər. Sizlərə onu da deyim ki, bir çox insan etdiyi davranışından da bixəbərdir.

Bu gün insan oğlunun bütü bəzən oturduğu kreslosudur, bəzən vəzifəsidir, bəzən şəxsi görünüşüdür, bəzən təqlidçilikdir və.s. İnsan anlamadan, dərk etmədən bu davranışları sərgiləyir. İnsanın həyat burulğanında bunu anlaması çətindir. Əgər insan hərəkət və davranışlarına kənar gözlə baxmağı bacarmazsa bunları idrak etməsi çətin olar. Bunun üçündür ki, insan zaman-zaman hərəkətlərini kənar göz olaraq müşahidə etməlidir. Əslində bu davranışlar insanda xarakter pozğunluğu da meydana gətirə bilir, yəni özü də bilmədən bunun üçün əlverişli mühit də hazırlayır. Ona görə də nəyə sitayiş etdiyimizə diqqət yetirməliyik ki, zaman keçdikcə bu hərəkətlərimizin fəsadları ilə boğuşmayaq.

Əgər cəmiyyət olaraq inkişaf edib önə getməyi planlaşdırırıqsa bu hərəkəti bir istiqamətli etməməliyik, çünki bu, nəticə verməyəcəkdir. Cəmiyyəti bütün yönləri ilə irəli aparmağı bacarmalıyıq. Bunun başında da insanın xarakteri dayanmaqdadır. Əgər cəmiyyətin fərdləri xarakter baxımından yetkinləşməyibsə və ya heç onun axtarışında deyilsə, o zaman orada inkişafdan, irəliləyişdən necə söz gedə bilər axı?

Bilik, bacarıq, qabiliyyət öz yerində, ancaq insan oğlu bunların hər birindən əvvəl sağlam xarakter və düşüncəyə sahib olmalıdır, əgər bunlara sahib olunarsa arxası öz-özlüyündə ardıcıllıqla gələcəkdir.

Pərəstiş etməkdə olduğumuz mövqelərə diqqət yetirməliyik. İnsan nəyə inanar, nəyə pərəstiş edərsə ona çevrilər. Yuxarıda da sadaladığımız kimi, pərəstiş etdiklərimizə çevrilərsək aqibətimiz necə olar, bax, bu sual ətrafında həqiqətən ciddi düşünməliyik. Bizim şəxsi bütlərimizin pəncəsindən xilas olmaq vaxtımız çoxdan gəlib və keçməkdədir.

Bütpərəstliyi aradan qaldırmağa çalışarkən bizlər öz bütlərimizi öz əllərimizlə düzəldib önümüzə qoymayaq. Əksinə, ondan xilas olaq.

Gələcəyin qurtuluşu şəxsi bütlərimizdən xilas olaraq cəmiyyətə faydalı işlər görməkdən keçir.

**Lamiyə HACIYEVA**

*Bütün Gürcüstan Müsəlmanları İdarəsinin Şərqi Gürcüstan Müftiliyinin Qadınlar Şurasının sədri*

## DİREKTORLAR ÜÇÜN İMTAHAN TƏXİRƏ SALINIB




İctimai məktəb direktoru olmaq istəyənlər üçün imtahan bu il təxirə salındı.

Təhsilin İdarəsi üzrə Məlumat Sistemindən "etaloni.ge"yə bildiriblər ki, imtahanın təxirə salınmasının səbəbi qeydiyyat müddətinin uzadılması ilə bağlıdır.

Qeyd edək ki, Təhsilin İdarəsi üzrə Məlumat Sisteminə imtahanın keçiriləcəyi vaxt məlum deyil; heç Təhsil Nazirliyində də imtahanın dəqiq vaxtı ilə bağlı bilgisi olan yoxdur.

Güman ki, imtahan 2023-cü ildə keçiriləcək. İmtahan iştirakçıları testin maksimum balının 60 %-ni topladıqları halda kompetensiya və bacarıqları uğurla başa vurmuş hesab olunacaqlar və müsahibə mərhələsinə keçəcəklər, müsahibə mərhələsini də uğurla keçmiş şəxs məktəb direktoru üçün imtahanı vermiş sayılır.

## GƏLƏN İLDƏN 7-12-Cİ SİNİFLƏRƏ YENİ FƏNN ƏLAVƏ OLUNUR



Ətraf Mühitin Mühafizəsi və Kənd Təsərrüfatı Nazirliyinin Ətraf Mühitin Mühafizəsi və Təhsil Mərkəzinin 2023-cü il büdcəsi 1 790 000 lari müəyyən olunub. Bu barədə nazirlik məlumat yayıb.

Bildirilir ki, yeni büdcə ictimaiyyətin ətraf mühitin mühafizəsində qərar qəbul etmə prosesinə qoşulmasına dəstək üçün nəzərdə tutulub. Bunun üçün mərkəz öz funksiyası çərçivəsində ətraf mühitin mühafizəsi ilə bağlı məlumatın əlçatanlığını və ictimaiyyətin ətraf mühitin mühafizəsi haqda qərarların qəbul edilməsində iştirakını təmin edir.

*"Ətraf mühitin mühafizəsi və aqrar təhsilə dəstək, məlumatlandırma səviyyəsinin yüksəldilməsi mərkəzin mühüm istiqamətlərindən biri olaraq qalır. Mərkəz gələn il "Məktəbdə ətraf mühitin mühafizəsi və aqrar təhsil" proqramının baza və orta pillə üçün dərs vəsaitini hazırlayacaq. Bu vəsaitlərlə 7-12-ci sinif şagirdləri ətraf mühitin mühafizəsi və aqrar təhsilin mühüm məsələlərini öyrənə biləcəklər. Həmçinin ibtidai sinif müəllimlərinin hazırlıq prosesi də davam etdiriləcək",* – məlumatda bildirilir.

## MƏKTƏBLƏRDƏ TƏTİL MÜDDƏTİNİN UZADILMASINA HANSI HALLARDA YOL VERİLİR?

Məktəblərdə tədris ilinin, tətilin başlaması və sona çatması tarixləri qanunla müəyyən edilib.

Yeni tədris ili 15 sentyabrda başlayır və şagirdlərin əksəriyyəti üçün 15 iyunda başa çatır. Yalnız I və XII siniflər istisnadır. I sinif şagirdləri üçün tədris ili 27 mayda, XII sinif şagirdləri üçün isə 20 mayda başa çatır. Əgər qeyd olunan tarixlər istirahət gününə təsadüf edərsə I sinif şagirdləri üçün tədris ili 27 maya qədər sonuncu iş günü, XII sinif şagirdləri üçün isə 20 maya qədər sonuncu iş günü başa çatır.

Tədris ili ərzində məktəblər qış və yaz tətilində də istirahət edirlər. Qış tətili 30 dekabrda başlayır və 15 yanvarda başa çatır. Yaz tətili isə 8 martdan 15 marta qədər davam edir. Yay tətilinin müddəti 3 aydır və şagirdlər 15 iyundan 15 sentyabra qədər istirahət edirlər.

**Bəs tətil müddətinin uzadılması hansı hallarda yolverilməndir?**

*Qanuna əsasən, tədris ilinin başa çatması və ya tətil tarixləri qeyd olunan hallarda dəyişdirilə bilər:*

- "Ümumi təhsil haqqında" Gürcüstan qanununa əsasən, ictimai məktəblərdə pilotlaşdırmanın həyata keçirilməsi zamanı;
- İctimai məktəblərdə fors-major hadisə zamanı (təbii fəlakət, kütləvi qarışıqlıq, epidemioloji baxımdan əlverişsiz dövr və s.), eləcə də ictimai məktəb binasının bərpa işlərinin planlaşdırıldığı vaxtda yerinə yetirilməməsi və ya təxirəsalınmaz bərpa işlərinin həyata keçirilməsi zamanı;
- Vacib ictimai və dövlət maraqları olduğu halda.

## VALİDEYN İCLASLARI NƏ ZAMAN KEÇİRİLMƏLİDİR?



Birinci rüb başa çatan zaman müəllimlərin valideyn iclası keçirmək öhdəliyi yoxdur. Ancaq, yaxşı olar ki, müəllimlər rübün yekunlaşdırılması məqsədilə valideynlərə övladlarının akademik nailiyyətləri haqqında məlumat versinlər.

Milli tədris planına əsasən, sinif rəhbəri davamlı olaraq (ən azı ayda bir dəfə) valideynlərə övladlarının akademik nailiyyəti, nizam-intizamı, şəxsi problemləri, uğurları haqqında məlumat verməli, həmçinin, lazım olduğu halda, maraqlanan valideynlərlə görüşməli və şagirdlər, məktəbdə aparılan proseslərlə bağlı məlumat çatdırmalıdır.

Sənəddə valideynlərlə görüşün mütləq rübün sonunda keçirilməsi qeyd olunmayıb. Sinif rəhbəri seçimdə azaddır – ümumi iclas keçirə, yaxud hər valideynə fərdi məlumat verə bilər. Lakin toplantıda müəllimin bir şagirdin nizam-intizami və akademik uğuru haqqında başqa valideynin yanında danışmaq hüququ yoxdur.

## NAZİR: ETNİK AZLIQ NÜMAYƏNDƏLƏRİNİN DÖVLƏT DİLİNİ ÖYRƏNMƏSİ SİYASƏTİN BİRİNCİ VƏ ƏN MÜHÜM PRİORİTETİDİR



Parlament Barışıq və Vətəndaş Bərabərliyi Məsələləri üzrə Dövlət Naziri Aparatının 2022-ci il fəaliyyətinin hesabatını dinləyib. Qurumun rəhbəri Tea Axvlediani çıxışı zamanı bildirib ki, müxtəlif fənn və proqram üzrə 4000-ə yaxın müəllim gürcü dilindən hazırlıq keçib:

*"Etnik azlıq nümayəndələrinin dövlət dilini öyrənməsi siyasətin birinci və ən mühüm prioritetidir. Təhsil prosesinin keyfiyyətinin yaxşılaşdırılması baxımından qeyd etmək lazımdır ki, davamlı rejimdə yerli və ikidilli köməkçi müəllimlərin hazırlıq prosesi aparıldı. Bələdiyyələrdə yüksək ixtisaslı kadrların mövcud çatışmazlığına qalib gəlmək üçün cari ildə 207 gürcüdilli müəllim ezamiyyətdədir. Əlavə olaraq, müəllimlərin dil kompetensiyası və peşə inkişafı məqsədilə gürcü dilində müxtəlif fənn və proramın 4000-ə yaxın müəllimi, eləcə də gürcü dili ikinci dil kimi fənninin 518 müəllimi hazırlanıb".*

## MƏKTƏBLƏRDƏ PUL TOPLAMAQ HANSI HALDA YOLVERİLƏNDİR?



Məktəblərdə pul toplamaq qəti qadağandır. Bu, şagirdlərə daha yaxşı mühit yaratmaq məqsədilə də olsa birmənalı şəkildə qanunla qadağan olunur (məsələn, sinfin təmiri, mebel almaq və s.).

**"Məktəb maddi vəsaitin və ya başqa xeyirxahlığın qəsb edilməsinin aradan qaldırılması üçün bütün ölçüləri götürməyə məcburdur",** – qanunda belə yazılıb. Bu qayda müəllimlərə, eləcə də şagirdlərə aiddir. Bir şagirdin digər şagirddən pul alması və ya müəllimin şagirdlərə hansısa məqsədlə maddi xərc öhdəliyi qoyması qadağandır. Buna baxmayaraq, həmin sənəddə məktəbdə pul toplamaqla bağlı qeyd də var; həmin qeydə əsasən, istisna hallar da mövcuddur ki, məktəbdə pul toplamağı qadağan etmir.

"Şagird, valideyn və müəllimin tətbiq edilmiş qaydada **xeyriyyə məqsədləri üçün *könüllü*** ianələr toplamaq hüququ var" – qanunda belə yazılıb və qeyd olunub ki, maddi vəsaitlərin və ya başqa xeyirxahlığın ***qəsb edilməsi*** xeyriyyə məqsədi ilə də olsa yolverilməzdir.

*Səhifədəki məlumatlar "etaloni.ge" saytından götürülüb. Gürcü dilindən tərcümə etdi:*
**Aynurə ƏLİYEVA**

# SEMESTR QİYMƏTLƏRİ



Deməli, bu tədris ilinin birinci semestrinin sonuna gəlib çatdıq. Cəmi bir neçə günə həm 2022-ni, həm də jurnalı bağlayırıq. Mən qarşıdan gələn Yeni il münasibətilə indidən hər kəsi təbrik edirəm. Bu il hamı üçün düşərli, uğurlu olsun!

İndi isə keçək əsas məsələmizə. Əvvəllər ilin bu zamanında dərs vaxtı gözləyirdik müəllimi ya kimsə çağırsın, ya da telefonuna zəng gəlsin, bayıra çıxsın ki, biz də tezbazar jurnala baxaq. Saniyələr içində oğrun şəkildə qiymətlərimizə baxıb semestr qiymətlərimizi hesablayardıq. Sonralar özümüzə yeni taktika tapdıq. Müəllimin stulunun qarşısındakı partada oturan şagirdlərə tapşırmışdıq ki, jurnalda filan nömrəli şagirdik, bax gör müəllim neçə yazacaq. İndisə jurnallar onlayn rejimindədir və hamı nə vaxt istəsə daxil olub qiymətlərinə baxa bilər. Amma ərz etmək istədiyim məsələ jurnallar deyil, jurnala yazılan qiymətlər, bu qiyməti alanlar və yazanlardır.

Hələ 15-20 il qabaq qiymətləndirmə 2-5 arası, indisə 2-10 bal arasında aparılır. O vaxtlar 5 almaq üçün çox əlləşirlərmiş. Düşün, internet yox, əlavə məlumatı əldə etməyin tək yolu kitab oxumaq, işıqlar da çox vaxt olmur (özlərinin dediyinə görə). Bu gün əvvəllər əla sayılan 5 qiyməti 10 balla əvəz olunub. Ən böyük fərqi isə ondadır ki, 10 almaq 5-ə nisbətən daha asandır. Cəmi üç şərt daxilində bu qiymətə sahib olmaq mümkündür:

1. Varlı olmaq;
2. Müəllim övladı (nəvəsi) olmaq;
3. Əzbərçi olmaq.

Varlı şəxsin övladı olmaq şagirdin günahı deyil, ancaq pulla əla qiymətləri almaq onun bədbəxtliyidir və tarixi yəqin ki, çox qədim olar. Şükürlər olsun ki, bizim məktəbdə heç rast gəlinməyib, olmasın da.

Qaldı ki, müəllim övladı olmağa, əgər məktəbin konstitusiyası olsaydı yəqin birinci və ən önəmli maddəsi "Müəllim övladlarına, nəvələrinə, məktəbdə təhsil alan bütün nəslinə 11-12 illik təhsil həyatında 10 yazılmalıdır" olardı. Bir də, belə bir məsələ var ki, müəllim övladları hər fənni, özəlliklə ana-atasının və ya nənə-babasının keçdiyi dərsləri mükəmməl bilməlidir. Onun bir fəndən zəif olması, ya da riyaziyyat müəlliminin övladının musiqiyə daha çox üstünlük verməsi yolverilməzdir. Sanki onlar Harri Potter kimi qeyri-adi bacarığa sahib olmalıdırlar. Belə baxanda müəllim övladı olmaq da çətin məsələdir.

Son zamanların ən məşhur, ən asan, pulsuz və daydaysız 10 almağın yolu dərsi əzbərləməkdir. Elə-belə əzbərləmək demirəm haa, hərf-hərf, cümlə-cümlə əzbərləməkdən gedir söhbət. O dərəcə əzbərləmək ki, cümlədə "amma" yerinə "ancaq" deməyəsən. Şeiri, qəzəli əzbərləməyi demirəm, 4-5 vərəqlik tarix dərsini, dastanın ixtisarla verilmiş boyunu (qolunu) əzbərləyirlər. Əlavə məlumat dursun bir yana, cümlədə əlavə söz belə işlətmirlər. Bəzi müəllimlər bələlərinə siz digər uşaqlardan daha çox əmək çəkirsiniz deyib 10 yazır, bəziləri isə əzbərçiliyin mənfi tərəflərindən danışıb orta qiymətləndirirlər. Semestr gələndə isə axırıncı dəfə 15 sentyabrda məktəbə gələn valideyn gəlib müəllimin başının üstünü kəsdirir ki, mənim uşağım otağa girib saatlarla dərs oxuyur, amma sən ona yaxşı qiymət yazmırsan. Elə bir vəziyyət yaradır ki, müəllim yazıq da  məcbur qalır yüksək qiymət yazmağa. Elə bu bir neçə günlərdə övladının yeni sinfinin neçənci mərtəbədə olduğunu bilməyən valideynlər məktəbdə görünməyə başlamışdılar.

İndi bir neçə gün sonra semestr qiymətləri açıqlanacaq və kimin 10 aldığı, kimin sinifdə qaldığı (bu nadir hallarda baş verir) bəlli olacaq. Əlbəttə, hər bir şagird, valideyn, müəllim istəyər ki, hamı yaxşı oxusun, əlaçı olsun, savadlı gənclər yetişsin. Amma bu o demək deyil ki, hamı 10 almalıdır, hər fənni dərindən mənimsəməlidir. Hamının hər şeyi mükəmməl bildiyi, bacardığı bir dünya isə bildiyim qədər mövcud deyil. İçi mən qarışıq elə şagird yoxdur ki, hər dərsi 10-a layiq bilsin, kimi humanitar fənləri, kimi də riyazi fənləri yaxşı oxuyur. Bir fəndən 8-9 almaq dünyanın sonu demək deyil, qiymət davası döymək lazım deyil. Əsas olan savaddır, həqiqi savad; rüşvətlə, qohumluq əlaqəsi ilə, əzbərçiliklə qazanılan savad yox. Savaddan əvvəl isə tərbiyə gəlir. Məncə, gələcəyə saxta savada malik olan gənclər yox, həqiqi savada malik olan, tərbiyəsi yerində olan gənclər lazımdır. Ona görə də savadsızlıq dəryasına yeni su çuxurları açmaq lazım deyil. Məktəbdə alınan qiymətlər ancaq kağız üzərində qalacaq, bizi sahib olduğumuz savadla, ağılla məktəbdən yola salacaqlar.

*Çiyalə OSMANOVA*
Qardabani 3 saylı ictimai məktəbin 12-ci sinif şagirdi

# BAYRAM



Yeni il bayramı uzun illərdir qeyd olunan bayramdır. İlin bitməsi və yeni ilin başlanması səbəbi ilə qeyd olunur. Yeni il dünya bayramı hesab edilir. İnsanların əksəriyyəti Yeni ilin xristianların bayramı olduğnu düşündükləri üçün bayramı qeyd etmirlər. Hər bir insanın dinindən aslı olmayaraq fikirlərinə və düşüncələrinə hörmətlə yanaşmaq lazımdır.

Yeni il mənim üçün ən sevimli bayramlardan biridir. Uşaqkən hər il səbirsizliklə dekabr ayının gəlməsini, daha sonra isə ayın 31-nin gəlməsi üçün günləri sayardım. Hər il dekabr ayının 15-də evdə şam ağacı bəzəyərdik. Hər il eyni həvəslə şam ağacını bəzəmək üçün çox səbirsizlənərdim. Şaxta babanın həqiqətən də real həyatda olduğuna inanardım. Xatırlayıram, hətta bir dəfə bağçada şənlik var idi, müəllimimiz şaxta baba paltarı geyinmişdi, onun həqiqi şaxta baba olduğuna inanmışdım. Evə gələnə qədər yanından çəkilməmişdim. Şənlik bitdikdən sonra isə şaxta baba, yəni müəllimim mənə hədiyyə vermişdi. Hər halda ən xoşbəxt olduğum Yeni il olmalıdır, çünki 16 yaşım var və hələ də o Yeni il gününü unutmamışam.

Hazırda böyük şəhərlərdə Yeni il daha təmtəraqlı qeyd edilir. Bəs kəndlərdə insanlar bayramı necə qeyd edirlər? Bayrama necə hazırlaşırlar?

Nənəmdən, babamdan eşitdiklərimə görə, əvvələr kənddə bəzi insanlar Yeni ili qeyd edərlərmiş, bəziləri isə maddi baxımdan imkan olmadığı üçün bayramı qeyd etməzlərmiş. Ancaq indi böyüklərimin dediklərinə görə, bayramı kənd əhalisi daha həvəslə və daha yaxşı keçirirlər. Əvvələr kənddə yaşayan insanlar çox çətinlik çəkdikləri üçün və dolanma yaxşı olmadığı üçün bayramı təmtəraqlı qeyd edə bilməzlərmiş. İndi isə çox şey dəyişib.

Yeni il bayramına son üç gün qalıb, insanlar bayrama hazırlaşırlar. Şəhərlərdə, məktəblərdə, bağçalarda şənliklər qeyd olunur. Yollar, şəhərlər əvvəlkinə nisbətən bu il daha gözəl bəzədilib. Lakin dəyişən insanlardır. İnsanlar xoşbəxt deyillər. Dünən dərsdən evə qayıdarkən yolda gördüm: bir qadın əlində ərzaqla dolu torba ilə gedirdi, yəqin bayram üçün bazarlıq etmişdi. Qadın öz-özünə danışırdı; nə üçün yalnız bir gün üçün bu qədər xərcə düşüb, bütün gün yemək bişirib yoruluruq, daha sonra da heç gecəni gözləmədən süfrə arxasında mürgüləməyə başlayırıq deyirdi.

Qadının dediyi bu sözləri eşitdikdə artıq böyüdüyümü və insanların həyata qarşı olan ümidsizliklərini anladım. Yeni il bayramı, böyük-kiçik fərq etmədən, artıq bir bayram kimi deyil, lazımsız xərc hesab edilir. İnsanların bayrama həvəslərinin olmaması, artıq bir xərc hesab edilməsi bizim yaşadığımız mühitdən və şəraitdən aslıdır. Əgər yaxşı maaş, gözəl bir iş və ölkənin pulunun dəyəri olsaydı insanlar bayramı lazımsız hesab etməzdilər.

Fikrimi Molla Pənah Vaqifin şeiri ilə tamamlamaq istəyirəm:

Bayram oldu, heç bilmirəm neyləyim...
Bizim evdə dolu çuval da yoxdur.
Dügüylə yağ hamı çoxdan tükənmiş
Ət heç ələ düşməz, motal da yoxdur.

Allaha bizmişik naşükür bəndə,
Bir söz desəm, dəxi qoymazlar kəndə.
Xalq batıb noğula, şəkərə, qəndə,
Bizim evdə axta zoğal da yoxdur.

Bizim bu dünyada nə malımız var,
Nə evdə bir sahibcamalımız var.
Vaqif, öyünmə ki, kamalımız var,
Allaha şükür ki, kamal da yoxdur.

*Aytən FƏTULLAYEVA*
Qardabani 3 saylı ictimai məktəbin 12-ci sinif şagirdi

# TÜRKDİLLİ XALQLARIN ƏXLAQİ-ESTETİK ALƏMİ

## NƏ VAXTSA AĞI QARADAN SEÇMƏYİN VAXTI GƏLƏCƏK

### (Türk folklorunun estetikası və mənəvi əqidəsi)

Elizbar CAVELİDZE

*(əvvəli ötən sayda)*

Ozan libasını geymiş Beyrək əvvəlcə nişanlısı Banuçiçəyin paltarını geyəndə onu aldatmağa cəhd göstərən Qısırca Yengə adlanan xatunu və sonra Boğazca Fatma xatunu biabır etdiyi səhnə geniş və yaddaqalandır. Beyrək onlarla sarkazm ilə haqq-hesab çürüdür: birincini qısır və məşuqə, ikincini isə qırx oynaşlı olması ilə biabır edir və orada olan xatunlara ürəkdən güldürür, qəh-qəhə çəkdirir (K.D.Q., səh. 82-83; D.K.K., səh. 53; O.D.D.K.K. səh. 93-94). Qısası, bu çıxarışda zəhər qarışıqlı kinayə o dövrdə təəccüblüdür, lakin hər halda olan yüngül əxlaqlı xatunlar ifşa olunub. Başlıcası odur ki, qəhrəmanlıq eposunun ideal boyalarına bələnmiş aləmdə realizm özünü büruzə verir, başqa cür desək, gerçək həyatı əks etdirən axın da.

Bir sözlə, insan həyatı həmişə keçmişdə və bu gün də əxlaq ilə əxlaqsızlığın, ağ ilə qaranın qurşaq tutmasında keçir. Əxlaqı olanlar bəyəniləndir və gözəldir, əxlaqsız və eybəcər olan pislənilədir. Müvafiq olaraq bütün bədii əsərlər və o cümlədən, bəllidir ki, qəhrəmanlıq eposu yüksək əxlaq və gözəllik ideyasını əks etdirməyə cəhd göstərir. Lakin, birincisi, yaradıcı olsun, fərdi, istərsə də, ümumiyyətlə, sadə xalq olsun, ixtiyari və qeyri-ixtiyari öz bədii modelini gerçəkliyi dərk etməklə yaradır. Buna görə də o, mövcud əxlaqsızlıqla da hesablaşır. Halbuki bunu əksər halda kontrast qara fon olaraq istifadə edir ki, ağ, aydın şüa daha bəlli şəkildə özünü göstərsin. "Dədə Qorqud" eposu bu baxımdan intisna olunmur.

Burada fövqəladə şəkildə qeyd etmək lazımdır ki, bu eposda müharibəni əks etdirən döyüş səhnələri əhatə olunub, bunlar barəsində də artıq mühakimə olub və bu dəfə artıq bir daha təkrarlamayacağam. Sadəcə qeyd edirəm ki, mübarizənin gedişini verməklə qədim oğuzların döyüşü aparmaq taktikası müəyyən edilir. Lakin öncəki boyun təhlili zamanı qeyd etdim ki, bu təsvir daha çox estetik olaraq dəyərdir.

Eləcə də Salur Qazan tərəfindən verilən ziyafət diqqət çəkir. Bəy doxsan otaqlı uca evlərini qara yer üzərində tikdirmişdi. Doxsan yerdə böyük ipək xalı döşətdirmişdi. Səksən yerdə küplər qoyulmuşdu. Qızıl qədəhlər, sürahilər düzülmüşdü. Doqquz qara gözlü, göyçək üzlü, saçı arxada düyünlənmiş, köksü qızıl düyməli, əlləri biləyindən xınalı, barmaqları naxışlı, gözəl kafir qızları qalın oğuz bəylərinə şərab paylayırdılar. Ulaş oğlu Salur Qazan içdi-içdi, axırda şərabın təsiri başına vurdu (K.D.Q., səh. 45; D.K.K., səh. 30; O.D.D.K.K. səh. 50).

Başqa yerdə də oğuzların ziyafətinin təsvirinə rast gəlirik, lakin bu yeri, birincisi, ona görə göstərdim ki, burada oğuz bəylərinin kef məclisi ən obrazlı şəkildə göstərilib. İkincisi də, bu hissədə Salur Qazanın zənginliyi və əliaçıqlığı qeyd olunub. Üçüncüsü də, qara gözlü, göyçək üzlü, saçı arxada düyünlənmiş, köksü qızıl düyməli, əlləri biləyindən xınalı, barmaqları naxışlı, gözəl kafir qızları qalın oğuz bəylərinə necə şərab payladıqları önə çəkilibdir ki, bu da oğuzların əxlaqından və düşmənləri alçaltdıqlarından xəbər verir. Bu dəfə də oğuzların qüdrəti və kafir düşmənlərin acizliyi böyüdülüb. Bu cür üstünlük döyüşdə olduğu kimi, eləcə də ziyafət zamanı özünü göstərir. Halbuki Salur Qazan öz bəylərini ova səsləyəndə, onun oğlu atasına xəbərdarlıq edir: "Ağam Qazan, sası dinlü Gürcüstan ağzında oturarsan, ordun üstinə kimi qorsan?" Xristian gürcülərin qonşuluğu daim oğuzları qorxudurdu və bu bir neçə epizoddan müəyyən edilir. Lakin ən əhəmiyyətlisi odur ki, "Dədə Qorqud"un yekun olaraq yazılı şəkildə qanuniləşdirilməsi məhz elə Gürcüstan sərhədinin qonşuluğunda yaşayan oğuzlar, yəni azərbaycanlılar tərəfindən baş verdi.

İndi təhlil olunan eposun obrazlılığının yaranması və təsviri səviyyəsində konkret olaraq hamısı leksik vahidlərdən istifadə olunur. Hər şeydən öncə qeyd etməliyəm ki, bu leksik ehtiyat zəngin deyildir və aşkarcasına irəlicədən işlənmiş material ilə hüdudlanmamışdır, bu da təəccüblü deyildir, əgər xatırlasaq ki, bu epos eyniyyətin estetik modelinə məxsusdur, irəlicədən bəyənilmiş və demək mümkündür ki, qanuniləşmiş obrazlı şirinliyi bizə təklif edir. Buna görə də onda nəsə yeni və orijinal simaların axtarılması nə az, nə çox, suyun dibində alovu axtarmaq və alışdırmaq deməkdir. Eyni zamanda "Kitabi Dədə Qorqud" xalq yaradıcılığı nümunəsidir ki, eləcə də fərdi, orijinal baxışları və təsvirləri bir şeyə saymır. Və nəhayət, artıq qeyd etdiyim kimi, bu eposun boyakarlığı bilavasitə oğuzların həyat tərzinə, xarakterinə və ənənələrinə əsaslanır. Belə ki, eposda oğuzların həyatının praktisizmi ilə qidalanan aləmin dərk olunmasının modeli ön plana çəkilmişdir.

İndi oğuzlar üçün təmasda olduqları dəyərli ev və çöl heyvanlarının növlərini xatırlayaq. Bu hər şeydən öncə bədəvi, müxtəlif cinsli və rəngli atlardır. Bütün oğuz igidləri öz bədəvi atı ilə özünü bəyənir, onun qədrini və qiymətini bilir. Budur, Beyrək öz boz ayğırını necə öyür:

**"Açuq-açuq meydana bənzər sənin alıncuğın,**
**İki şəbçırağa bənzər sənin gözcigəzin,**
**Əbrişimə bənzər sənin yəlicigin,**
**İki qoşa qardaşa bənzər sənin qulacığın,**
**Əri muradına yetürər sənin arxacığın.**
**At deməzəm sana, qardaş deyərəm,**
**qardaşımdan yeg!**
**Başıma iş gəldi, yoldaş derəm,**
**yoldaşımdan yeg! - dedi."** (K.D.Q., səh. 45).

Gətirilən çıxarış müqayisələrlə diqqəti cəlb edir: alın açıq meydana, gözlər şəbçırağa (gecələr işıq saçan mirvariyə), yalı ipəyə, qulaqları iki qoşa qardaşa, beli isə süvarini məqsədinə (niyyətinə) çatdırar. Başlıcası odur ki, hər halda odur ki, yarış anında yoldaşdan artıqdır və qardaş əvəzidir, at ki adlanır layiqincə deyildir. Qısası, burada igid oğuzun həyatında cins bədəvinin necə böyük rol oynadığı aydınca bəyan edilibdir.

Atdan sonra ən qiymətlisi dəvədir. Ələlxüsus qırmızı dəvə. Bu qırmızı rəng ona fərqli cinslilik və cazibədarlıq verir. Eləcə də oğuzların həyatı üçün qoyun dəyərdir. Qoyunun ağlığı ümumən qeyd olunubdur ki, bu da xeyirxahlıqdan xəbər verir və bədbəxtlikdən, eyibdən xəbər verən qara qoyuna qarşı durur.

Barı, elə burada bir daha təkrar edirəm ki, təhlil olunan qəhrəmanlıq eposu başdan ayağa ağ və qaranın, yəni xeyir və şərin, elə götürək, əxlaqla əxlaqsızlığın qarşılıqlı qarşıdurma fonunda qurulub.

Elə burada mütləq istəyirəm qeyd edəm ki, oğuz igidinin öz bədəvi atına göstərdiyi böyük hörmət və izzətə, ləyaqətə baxmayaraq, praktisizm özünü büruzə verir, başqa cür, həyat sayağı real və ziyafət zamanı qonağa hörmət əlaməti olaraq dəvə, qoyun kimi atın da kəsilməsi faktı bizə rast gəlir. Məsələn, Bayandur xan qonaqları qarşılamaq üçün "atdan ayğır, dəvədən buğra, qoyundan qoç qırdırmışdı" (Elə orada, səh. 4). Diqqətəlayiqdir ki, sanki bütün ziyafətlər zamanı yuxarıda adı çəkilən heyvanlar kəsilir və bunu ifadə edən kəlmə sözbəsöz təkrar olunur.

Ümumiyyətlə, qoruğa ev hevanları, eləcə də çöl heyvanları cəm olunublar. Məsələn, Əlincə qalasında Qara Təkurun qoruğunda quşlardan qaz və toyuq; çöl heyvanlarından maral, ceyran, dovşan və sair yığılıbdır (Elə orada, səh. 125-126) ki, bunların da xatırlanması müxtəlif kontekstdə müxtəlif cürdür. Lakin zəriflik və gözəllik obrazı olaraq qaz daha çox yayılmışdır (O.D.D.K.K. səh. 51; 114). Məsələn, ala qaz (Elə orada, səh. 139) məhəbbətin tale yazısının bir növ rəmzi olaraq dərk edilir. Quşlar arasında eləcə də qu quşu, durna, turac, bildirçin və sair bizə rast gəlir (Elə orada, səh. 141). Lakin yuxarıda adı çəkilən quşlar "Dədə Qorqud" eposunun obrazlılıq toxunuşunda, elə götürək, bədii kontekst səviyyəsində, çox nadir hallarda, demək mümkündür ki, bunun əksi olanların adı hallanmır: dişi maral, ala ceyran, ahu və sair, çox çətin görünəsi və arzu olunası, çox hallarda bədii arenaya çıxırlar. Budur, elə götürək bu nümunəni:

**"Arku beli ala tağı avlar idüm,**
**Ala giyik, sığın giyik kovar idüm**
**Tartanda bir oh-ilə neyler idüm"** (Elə orada, səh. 146).

İllah da ki, qonşuluğunda çöl eşşəyinin, maralın, ceyranın asudə olduğu bu duracaq, istərsə də ev dəyərləndirilir və tərifə layiqdir (Elə orada, səh. 54). Bu da oğuzların həyat tərzi üçün ovçuluğun nə dərəcədə dəyərli olduğundan xəbər verir. Məhz elə ovçuluğa görə, on birinci boyun süjetinin inkişafının səbəblərindən olan şahin dəyərlidir (Elə orada, səh. 188). Müvafiq olaraq o, müqayisənin komponentlərindən biridir. Məsələn, Uruz kafirləri elə darmadağın etdi ki, düşünərdin ki, "sanki dar yola dolu düşdü, ya qaz sürüsünə şahin girdi" (Elə orada, səh. 105). Və ya Selcan xatun atını elə oynatdı ki, düşünərdin, "qara qaz sürüsünə şahin girdi" (Elə orada, səh 143). Quşlar şahı qartalın obrazının müqayisəli aspektdə təsvir olunması daha çox təəssürat oyadıcıdır:

**"Qab qayalar başında yuva tutan,**
**Qadir, Ulu Tanrıya yaqın uçan,**
**Mancılığı ağır daşdan ğızıldayub, qatı enən,**
**Arı gölün ördügin şaqıyub alan,**
**Qaba öykə dib yürürkən dartub üzən,**
**Qarıncığı ac olsa, qalqub uçan,**
**Cümlə quşlar sultanı çal qaraquş**
**Qanadıyla saqsağana kəndözin şaqıdarmı?**
**Alb yigitlər qırış güni qırımından qayırırmı?"** (Elə orada, səh. 139-140).

Yuxarıda verilən quşlar şahının yuva salması və ov ovlaması mənzərəsi yalnız oğuz igidinin obrazının yaradılmasını müqayisə səviyyəsində bizə təqdim edir. Odur ki, estetik duyğunun və emosiyanın oyadılması metodu (vasitəsi) təhlil olunan eposun boyakarlığı üçün yad deyildir.

Ümumiyyətlə, ovçuluq aləmi bu cür təsəvvür olunur. Şir, pələng, canavar, qara buğa, qara dəvə və sair. Bunlar arasında coşmuş şir, qara buğa və qara dəvə ziyankar, yaramaz qüvvələrin rəmzləridir ki, bunların da yalnız qüdrətli, adlı-sanlı, tanınan igidlər öhdəsindən gəlirlər. İkinci tərəfdən isə, pələng, şir və canavarlardır ki, oğuz igidləri onlar ilə nəslinin eyniyyətilə özünü bəyənir, öyünür və fəxr edir. Qazan xanın onu əsir götürənləri necə qorxutmasını bir daha xatırlayaq: "Aq qayanın qaplanının erkəgində bir köküm var, ortac qırda sizin keyiklərinüz durğurmaya. Aq sazın aslanında bir köküm var, qaz alaca yundunı durğurmaya. Əzvay qurd ənügi erkəgində bir köküm var, ağca bəkil tümən qoyunun gəzdirməyə. Ağ sunqur quşı erkəgində bir köküm var, ala ördək, qara qazun uçurmaya... (Elə orada, səh. 193).

İgidin onun mənəvi və fiziki qüvvəsindən xəbər verən şir və pələnglə eyniləşdirilməsi, demək münkündür ki, bir növ stereotip xarakterini daşıyır (Elə orada səh. 50; 91 və sair). Elə burada vurğulayacağam ki, pələng və şir qüdrət rəmzi obrazı olaraq orta əsrlərin xalq, istərsə də klassik ədəbiyyatında geniş yayılmışdır ki, bu da nüxtəlif xalqların qarşılıqlı təsiri ilə deyil, eləcə də xalqların həyatlarında bərqərar olunan bu heyvana qarşı münasibətin və onların qüdrətinin təsəvvürü ilə şərtlənib.

*(davamı gələn sayda)*

Gürcü dilindən tərcümə edən: **Mirzə MƏMMƏDOĞLU**

# NİDERLAND – PƏRDƏ ARXASINDAKI GERÇƏKLƏR

## GEDİŞ-GƏLİŞ

### 26. KİÇİK MAŞINLARIN BÖYÜK ÜSTÜNLÜYÜ



*(əvvəli ötən sayda)*

Niderlandda maşın bolluğudur. İtinə tök, pişiyinə dağıt. Maşınların bolluğu böyük şəhərlərdə özünü daha çox hiss etdirir. Hərəkət zolaqlarında hərəkətdə olan, dayanacaqlarda hərəkətsiz dayanan maşınların arasından keçmək olduqca çətindir. Şəxsi avtomobilini saxlamaq üçün, park etmək üçün xeyli vaxt itirməli olursan. Bu, dünyanın böyük şəhərlərinin əsl baş ağrısıdır. Bir maşınına minib sürəndə sevinirsən, bir də ona dayanacaq tapıb düşəndə. Niderland şəhərlərinin bu maşın sıxlığına rəğmən kiminsə siqnal verməsinə, kiminsə kimisə tələsdirməsinə, kiminsə başını şüşədən çıxarıb kimisə allı-güllü sözlərə qonaq etməsinə, yol üstündə dava-dalaş salmasına təsadüf etməzsən. Ölkədə hər şeyi səbrlə həll etməyə, səbrlə yoluna qoymağa adət ediblər. Elə maşın tıxacları da bu yolla tənzimlənir.

Arada motesikletinin qazını artıran baykerlərə, maşınında musiqini gücləndirən tiplərə də rast gələ bilərsən. Amma bunun nadir hallarda baş verdiyini də söyləməsəm olmaz. Bu yerdə "meşə çaqqalsız olmaz" deyib keçirsən. "Naxırın adını bir qotur dana pozar" məsəlimizi də yada salsaq yerinə düşər. Maşallah, özümüz əməl etməsək də hər situasiyaya uyğun məsəlimiz əlimizin altında hazırdır.

Urbanizasiyanın sürətli gedişi meqapolislərdə avtomobillərin artımını da sürətləndirir. Müasir şəhərlərdə maşınların saxlanması üçün dayanacaqların çatışmazlığı hiss olunur. Nabələd sürücülərin işi isə lap müşkülə çevrilir. Bir az qabaq dediyimiz kimi, bu problem Niderlandın böyük şəhərlərində də hiss olunur. Yeraltı, yerüstü çoxmərtəbəli, minlərlə maşına eyni vaxtda ev sahibliyi edən çoxsaylı müasir avtodayanacaqların inşa edilməsinə baxmayaraq, bəzən bu, problemlərin həlli üçün yetərli olmur. Yetərli olsa belə bu xüsusi dayanacaqlardan istifadə etmək çox adam üçün sərfəli deyil. Bu dayanacaqların xidmətindən gündəlik istifadə isə maşın sahibləri üçün zülümdür. Hər gün bir ətək pul xərcləmək lazım gəlir. O üzdən də maşın sahibləri bu xidmətdən qaçmağa çalışırlar, başqa alternativlər axtarırlar.

Müasir binaların alt qatında bina sakinlərinin avtomobillərini saxlamaları üçün xüsusi qarajların olması da, ildən-ilə sayı artan avtomobillərin dayanacaq, park problemini həll etmək də, deyəsən, aciz görünür.

Niderlandda açıq, meydança tipli avtomobil dayanacaqlarına da rast gəlmək olur. Küçələrin müəyyən yerində də belə pullu dayanacaqlar görmək mümkündür. Bu tipli dayanacaqlara nəzarət videogözlər vasitəsilə həyata keçirilir. Yaxınlıqda yerləşən ödəmə terminalları sənə hər saat üçün nə qədər ödəməli olmağın barədə məlumat verir, sənin kiməsə müraciət etmənə, kimdənsə yardım ummana gərək qalmır. Avtomobilini dayancağa yerbəyer etdinmi, rüsumunu ödədinmi, vəssalam, arxayın ola bilərsən; maşının əmin əllərdədir, çıxıb işlərinin dalınca gedə bilərsən. Belə dayanacaqları yaratmaqla əlidəyənəkli gözətçiyə də ehtiyac olmayacaq. İşin ən maraqlı tərəfi isə avtomobilin park edilməsinə görə ödədiyin pulun kiminsə cibinə yox, məhz dövlətin büdcəsinə daxil olduğuna inanacaqsan.

Böyük şəhərlərə gündəlik gedib-gələnlər avtomobillərini şəhər ətrafında və ya şəhərin sakit guşələrində, dayanacaq üçün rüsum tələb edilməyən yerlərdə saxlayaraq lazımi ünvana ya şəxsi velosipedləri ilə, ya da ictimai nəqliyyatla getməyə üstünlük verirlər. Vəziyyətdən çıxış üçün ən yaxşı yöntəm velosipeddən istifadə etməkdir. Velosipedi bəzən avtomobillərin arxasına quraşdırılmış xüsusi platformaların üzərində hər gün gətirib-aparır, çox vaxt isə maşınlarını park etdikləri yerin yaxınlığında yerləşən pulsuz velosiped dayanacaqlarında at kimi çidarlayıb qıfıllayırlar. Binaların arasında, evlərin həyətində belə velosiped dayanacaqları istənilən qədərdir. Belə velodayanaclara getməyə ərinənlər də olur, velosipedlərini harada gəldi saxlayırlar. Hər il polisin minlərlə belə velosipedi yığışdıraraq müsadirə etdiyi də bəllidir. Bunu ona görə qeyd edirəm ki, Niderlandda bizim gözümüzdə xırda görünən hər bir məsələyə diqqətlə yanaşıldığını biləsiniz.

Bir abzasımızı da avtomobillərin necə park edilməsinə həsr etməmiz, düşünürəm ki, maraqla qarşılanacaq. Niderlandda maşınların necə gəldi, nizamsız saxlanılmasına rast gəlməzsiniz. Nə qədər boş yer olsa da, hətta şəxsi həyətində belə maşını lazım olan qaydada saxlamaq bir kult səviyyəsinə yüksəldilib. Küçələrdə, avtomobillərin dayanacaq kimi istifadə edə biləcəyinə icazə verilən yerlərdə sıralanmış onlarla maşın küçənin hərəkət hissəsindən ayrılmış xətdən bir qarış da kənara çıxmadan saxlanılır. Düşünürsən ki, bunun üçün çoxmu zəhmət çəkmək gərəkdir? Əsla, yox. Sadəcə vərdiş etmək, öz hərəkətlərini nəzarətdə saxlamaq, bir qədər diqqətli, bir az da hövsələsi gen olmaq, daha çox da başqalarına hörmət bəsləmək lazımdır. Vəssalam, səndən tələb olunan cüzi bir insani davranışdır, başqa heç nə.

İşıqforların olmadığı yerlərdə, piyada keçidlərində, heç belə keçidlər olmasa da, yol piyadanındır. Sürücü piyadanın keçməsini gözləməli, onun keçdiyinə əmin olduqdan sonra yoluna davam etməlidir. Sizi inandırım ki, çox vaxt yolu keçən piyada başını qaldırıb nə sağına baxır, nə soluna. O üzdən ki, birinci keçmək hüququnun özünə məxsus olduğundan, bu hüququ kiminsə pozmağa cəsarət etməyəcəyindən əmindir. Küçəni keçən yaşlıların ləng hərəkətini, dəcəllik edən uşaqların qəfil atlanışını səbrlə, hövsələ ilə izləyən, üz-gözündə heç bir narazılıq ifadəsi yaranmayan avropalı sürücüləri kənardan müşahidə etmək olduqca xoşdur. Belə situasiyalarda, tələssə belə bunu büruzə verməyən, siqnal verməyi ağlının ucundan keçirməyən avropalı sürücü hirslənməyi, yolu keçən adama irad bildirməyi heç vaxt düşünmür. Bunun hər iki tərəfə – özünə də, piyadaya da narahtlıq yaradacağını, hətta əlavə baş ağrısına səbəb olacağını bilir və yolunun açılmasını tələsmədən gözləyir. Sözarası onu da deyim ki, Avropada, bir qədər də dəqiqləşdirsəm, Niderlandda kiminsə tələsdiyini, vurnuxduğunu sezməzsən. Bu, küçədə də, mağazada da, ictimai nəqliyyata minib-düşəndə də, iş yerində də açıq-aydın hiss edilir. Nə piyadanın, nə sürücünün tələskənlik etdiyini görməzsən. Nədən ki, rejimin – iş, istirahət, əyləncə üçün vaxtın düzgün bölgüsü tələskənliyə yer qoymur. Bu üzdən də, qismətinə bir an əvvəl çatmaq, qismətilə vaxtından qabaq buluşmaq kimi əndişələri də yox. Nə gizlədim, dərs almalı örnəkdir.

Niderlandda maşın bolluğundan artıq xəbərimiz var. Bu bolluğun səbəblərindən biri də avtomobil yollarının rahatlığıdır. Avtomobillərin sel kimi axdığı yollar – istər şəhər küçələri, istər də şəhərlərarası magistrallar – səliqə-sahmanı, təmizliyi, nizam-intizamı ilə görənləri heyran edir. Şəhərlərarası yolların müasir standartların fövqündə duran mürəkkəb bir sistem olmasını xatırlatmadan keçmək istəmirəm. Asfalt və ya beton örtüklü bu cür müasir yollarda səfərə çıxan yolçuların yorulacağını, usanacağını xəyalından belə keçirə bilmirsən. Yolboyu səni müşaiyət edən gözoxşayan yaşıllıqların, təkrarsız kənd və şəhər mənzərələrinin sənin ruhuna bir dinclik gətirəcəyini əminliklə söyləmək olar. Yol kənarlarında bir dənə də olsun atılmış kağız, plastik, metal qırıntısına rast gələ bilməzsən. Atılsa belə o tullantını oradan qaldırıb yerinə qoyacaq xidmət işinin başındadır, tullantıların sayı artmadan onu təmizləyəcək.

Şəhər küçələri adətən daş və ya kərpiclə döşənir, səkilərin də əksəriyyəti belədir. Şəhərlərin qədim hissələrində asfalt və betondan istifadə olunması nadir hadisədir. Yağıntının bol olduğu Niderlandda, bu, çox önəmli bir yolsalma, şəhərsalma elementidir. Nə qədər gur yağsa belə yağış və qar sularının selə çevrilmə ehtimalı bu vasitə ilə önlənir. Yağış suları işlək kanalizasiya sisteminin köməyi ilə yığılsa da, daş və kərpic örtüklərin arasından da tezliklə torpağa sorulur. Həm də bu yolla şəhərlərdə istixana effektinin qarşısı alınır. Bir sözlə, şəhər küçələrinin bu cür döşənməsi ekoloji tarazlığın, insanların sağlamlığının qorunmasına xidmət edir.

Niderlandda maşınlar o qədər çoxdur ki, daş atsan maşına dəyər, iynə atsan yerə düşməz. Yol qovşaqlarında sağından-solundan, başının üstündən, ayağının altından keçən, rəngləriylə göyqurşağını andıran irili-xırdalı avtomobillərin yaratdığı əlvanlığa həyacan qarışıq bir heyrətlə baxırsan. Benzinlə, dizel yanacağı və ya elektrik enerjisi ilə çalışan avtomobillərin hərəkətini izləmək, o hərəkətin bir üzvü olmaq adama qəribə hisslər yaşadır. Bütün Niderland miqyasında maşınların nizamlı hərəkəti onun vahid bir mərkəzdən idarə olunması təəssüratı yaradır. Düzdür, avtomobillərin hərəkətinin idarəolunmasının avtomatlaşdırıldığı yerlərə də təsadüf olunur. Ölkə ərazisində quraşdırılmış videogözlər vasitəsilə hərəkətə nəzarət də həyata keçirilir. Bütün bunların hamısından istifadə olunur, texnoloji yeniliklərin hərəkətin tənzimlənməsinə uğurla tətbiq olunması da bir gerçəklikdir. Amma, mən bunları bilsəm də, avtomobillərin hərəkətinin idarəolunmasını böyük bir orkestrin dirijor çubuğu ilə idarə edilməsinə bənzətməyi fikrimdən keçirirəm.

Ağır tonnajlı yük maşınlarını, elə orta tutumlu daşımaçılıqla məşğul olan maşınları da bura qatsaq, ictimai nəqliyyat sektorunda xüsusi yer tutan avtobusları bir kənara qoysaq, yerdə qalan minik avtomobillərinin çoxluğu yenə də diqqətdən yayınmayacaq. 2019-cu ilin məlumatlarına görə, Niderlandın avtomobil parkında 12 mln 700 min ədəd irili-xırdalı maşın olduğu söylənir. Bunun da təxminən üçdə iki hissəsi minik avtomobillərindən ibarətdir. Öz tərəfimdən minik avtomobillərinin təxminən 80-90 faizinin kiçikölçülü maşınlardan ibarət olduğunu ehtimal edirəm. Burada bahalı marka avtomobillərə də rast gəlmək olar. "Tesla"nın, "Mersedes Benz"in ən son modelləri də var. Ancaq nəhəng ciplər bu ölkədə nadir hallarda gözə dəyir. Bir az diqqətli olsan bu avtomobillərin sahiblərinin ya ərəb, ya türk, ya fars olduğunu da müəyyən edə bilərsən. Son model "Porsche"dən düşənin 99 faiz ərəb olacağını baxmadan da deyə bilərsən. Neftin puludur, sağa da səp, sola da. Qız bişirməyə çıxıb, qız tutacaq. Buna görə kişinin xətrinəmi dəyəcəyik? Şərq xalqlarının dəbdəbəyə meyilli olması bu sektorda da özünü göstərir. Avropalının düşüncəsi belə avtomobillərə artıq pul verməyi, dövlətə belə avtomobilə sahib olduğuna görə bir ətək rüsum ödəməyi qəbul etmir, onun düşüncəsində buna yer yoxdur. Mən artıq mövzumuzun ən ağrılı nöqtəsinə çatdığımızı da anlayıram. Bu barədə növbəti abzasda danışaq.

Artıq Niderlandda minik avtomobillərinin əksərinin kiçik maşınlardan ibarət olduğunu hamımız bilirik. Mən bunu artıq bir neçə dəfə vurğuladığımın da fərqindəyəm. Bunu bilərəkdən etdiyimi də danmıram. Bizim Gürcüstanla, elə Azərbaycanla müqayisədə Niderlandın avtomobil parkının kiçikölçülü maşınlardan ibarət olması ilk baxışdan diqqəti çəkə bilər. Amma əslində bu belə deyil. Niderlandda bu maşınların əksəriyyəti yenidir, bizim maşınlara nisbətən son bir-iki ilin məhsullarıdır. Bizim maşın parklarımızın avtomobilləri nə qədər böyük görünsələr də, öz köhnəliyi, qocalığı ilə geridə qalır. Bizim maşınların böyük hissəsi Avropa maşınları ilə müqayisədə metal qırıntısı hesab edilməlidir. Məsələnin digər yanı mənəviyyatla bağlıdır. Avropalı üçün avtomobil hərəkət vasitəsidir, rahatlıq, vaxta qənaət mənbəyidir. Bizim avtomobil sahibi olma düşüncəmiz, bir çox sahələrdə olduğu kimi, deformasiyaya uğramış düşüncədir. Məni sərt fikir səsləndirməkdə qınayanlar olacaq. Canları sağ olsun, bir gün onların da niyə belə kəskin danışdığımı anlayacaqlarına ümidvaram. Bizim insanımız avtomobilə görüntü üçün, kimdənsə fərqlənmək üçün, kimdənsə üstünlüyünü nümayiş etdirmək üçün, kimisə mənəvi cəhətdən, statistikaya baxsaq, həm də fiziki cəhətdən əzmək üçün lazım olan bir vasitə kimi baxır. Cəmiyyətdə fərqlənmək nişanı hesab etdiyi nəhəng cipə minib-düşərkən həm xaşal qarnının ağırlığından, həm də maşının minib-düşmək üçün namünasib olmasından bu qədər əziyyət çəkməyə dəyərmi? Mənim fikrimi soruşan olsa, cavabım bəlli. Sizin nə cavab verəcəyinizi bilmirəm.

Çox qısaca bir məsələ barədə də fikrimi bildirməyə çalışacam. Niderlandda heç kim artıq pul verib avtomobili üçün palindroma, "zerkalni nömrə" dediyimiz dövlət nişanı almağa ehtiyac duymur. Düşünürəm ki, heç holland bunu ağlının ucundan da keçirməz. Burada belə bir ənənə yoxdur. Hollandların bir-birindən fərqlənmək üçün meydanları genişdir. Bu kiçik ölkənin sakinləri elm, sənət, idman və sair sahələrdə bir-birilə yarışmağı daha çox sevirlər, nəinki hər hansı əşyaya sahibliyə görə rəqabəti.

...Niderlandda maşın bolluğudur. Kiçik avtomobillər isə daha çoxdur. Bu maşınlar bir neçə səbəbdən çoxluq təşkil edir. Belə minik avtomobilləri ucuzdur, hər bir adamın almaq imkanı var. Dövlətə buna görə az vergi ödəyirsən. Niderlandda avtomobil sahibləri mühərrikin gücündən asılı olaraq vergi ödəyirlər. Yanacaq sərfi azdır, yenə büdcənə qənaət edirsən. Şəhərlərin maşın sıxlığında böyük ölçülü maşınlara nisbətən kiçik ölçülü maşınlara yer rahatlıqla tapılır, bu problemi daha tez yoluna qoya bilirsən. Adama bundan artıq nə lazımdır? Allahdan ölümmü gəzirsən? Bu kiçik minik avtomobillərdən al, işini aşır...

*(davamı gələn sayda)*

Afiq MUXTAROĞLU
Niderland

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

# Yeni YOL

31 DEKABR
2022-Cİ İL
№ 024 (171)

İCTİMAİ QƏZET yeniyolqazeti@gmail.com ❁ "ეენი იოლი" საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

## "GÜRCÜ DİLİNİ ÖYRƏNƏNLƏR ÜÇÜN PRAKTİK ÇALIŞMALAR TOPLUSU" KİTABININ TƏQDİMATI OLUB



Müəllimlərin Peşə İnkişafı üzrə Milli Mərkəzin təşkilatçılığı ilə qeyri-gürcüdilli məktəblərə dəstək proqramı çərçivəsində yaradılmış "Gürcü dilini öyrənənlər üçün praktik çalışmalar toplusu" dərsliyinin təqdimatı keçirilib.

Qeyri-gürcüdilli məktəblərə dəstək proqramının məqsədi milli azlıqların sıx məskunlaşdığı bölgələrin qeyri-gürcüdilli məktəb müəllimlərinin peşə inkişafına və tədris prosesinə, dövlət dilinin gücləndirilməsinə dəstək olmaq, məktəb bazasında qeyri-formal təhsil təcrübəsinin yaxşılaşdırılmasıdır. Proqram çərçivəsində həyata keçirilmiş tədbirlər məktəblərdə dövlət dili səviyyəsinin yaxşılaşdırılmasına və müəllimlərin peşə inkişafına istiqamətlənib.

Məhz bu məqsədlə mərkəzin ekspertləri və proqramın məsləhətçi müəllimlərinin müəllifliyi ilə tam yeni dərslik yaradılıb. Kitablar müəllim və şagirdlərə köməkçi resurs olaraq verilacək.

"Gürcü dilini öyrənənlər üçün praktik çalışmalar toplusu" dərsliyi Nino Şaraşenidzenin rəhbərliyi ilə yaradılıb. Kitabın müəllifləri Lali Dalakişvili-Aslamazaşvili, İza Qvircişvili, Nona Arevadze-Kotoraşvili, Nana Arabuli, İya Robakidze, Giorgi Çauçidze, Tsaulina Malazonia, Lela Butirişvili və Teymuraz Şalamberidzedir.

Təqdimatda Müəllimlərin Peşə İnkişafı üzrə Milli Mərkəzin direktoru Berika Şukakidze və proqram rəhbəri Nino Berikaşvili yeni dərsliyin yaradılması prosesi, qeyri-gürcüdilli məktəblərə dəstək proqramının məqsədləri haqqında danışıblar. Dərsliyin təqdimatını müəlliflər və kitab üzərində işləyən komanda üzvləri həyata keçiriblər.

## MƏKTƏB KİTABXANAÇISINDAN NƏ TƏLƏB OLUNUR?



Məktəb kitabxanası ümumtəhsil müəssisəsinin əsas şöbələrindən biridir və onun öz funksiyaları var.

Kitabxana tətbiq edilmiş qaydalarla şagirdlərə xidmət göstərir. Onun əsas məqsədi şagirdin inkişafı və ona rəngarəng ədəbiyyat çatdırmaqdır.

Kitabxanaçın məktəbin inkişafında hansı rolu var? Ondan nə tələb olunur və onun hansı öhdəlikləri var?

**Məktəb kitabxanaçısının əsas öhdəlikləri aşağıdakılardır:**

• Kitabxana sənədlərinin (kitab, jurnal, qəzet, xəritə və s.) qəbul edilməsi, hazırlanması, saxlanılması və onların məktəb ictimaiyyətinə əlçatan edilməsi;
• İstifadəçilərlə, oxucularla ünsiyyət qurmaq;
• Müvafiq resursu təklif etmək məqsədilə istifadəçinin/oxucunun informasiya marağının müəyyən edilməsi;
• Kitabxana sənədlərinin kataloqlaşdırılması və sistemləşdirilməsi (klassifikasiya);
• Kitab fondunun dövri inventarizasiyası;
• İş prosesləri üçün monitorinq aparmaq;
• Fondun müdafiəsi/təhlükəsizliyi şərtlərinin müəyyən edilməsi;
• Fonddan çıxarılmalı olan xarab olmuş kitabxana sənədlərini müəyyən etmək;
• Tədbirlər planı – təqvim tərtib etmək;
• Layihələrin hazırlanması və kitab oxumağın populyarlaşdırılması məqsədilə tədbirlərin planlaşdırılması.

***Kitabxanaçının ali təhsili olmalıdır, gürcü dilini tam bilməlidir və yaxşı olar ki, ofis proqramlarını mənimsəmiş olsun.***

***Məktəbdə kitabxanaçı vəzifəsində işləmək istəyənlər vakansiyalarla Müəllimlərin Peşə İnkişafı üzrə Milli Mərkəzin veb-səhifəsində tanış ola bilərlər: teachersjobs.ge***

*Mənbə: etaloni.ge*

## "AZƏRBAYCAN DİLİNDƏ GÜRCÜ DİLİNƏ MÜNASİBƏTDƏ FRAZEOLOJİ İFADƏLƏR" KİTABI TƏQDİM OLUNUB



Dekabrın 17-si Tbilisidə fəaliyyət göstərən Mirzə Fətəli Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyində Gürcüstan-Amerika Universitetinin gürcü dili filologiyası üzrə məzunu Namil Həsənovun "Azərbaycan dilində gürcü dilinə münasibətdə frazeoloji ifadələr" adlı kitabının təqdimatı olub.

Təqdimat mərasimində müəllimlər, gənclər və maraqlanan şəxslər iştirak ediblər.

Təqdimatda müəllif kitabda yer alan frazeoloji ifadələr haqqında geniş məlumat verib.

Müəllifin bildirdiyinə görə, universitetdə müəllimi tərəfindən ona verilən ev tapşırığını hazırladığı zaman Azərbaycan və gürcü frazeologiyalarının əlaqələri ilə bağlı məlumat əldə edə bilməyib. Bundan sonra o, çətinlik çəkdiyi mövzuda bir boşluq olduğunu düşünərək bu boşluğu doldurmaq məqsədilə araşdırma aparıb, topladığı məlumatlardan kitab hazırlamaq qərarına gəlib.

Gənc filoloq bildirib ki, kitabı yazmaqdan daha çox araşdırmalar aparmaqda çətinlik çəkib. Amma bütün çətinliklərə baxmayaraq o, öz istəyinə nail olub və arzu etdiyi kitabı gələcək nəsil üçün hazırlayıb.

Qeyd edək ki, kitabın ilk təqdimat mərasimi dekabrın 1-i Gürcüstan-Amerika Universitetində baş tutub.

## 2022-Cİ İLİN ƏN YAXŞI MƏKTƏB DİREKTORLARI MƏLUMDUR



2022-ci ilin ən yaxşı məktəb direktorlarının kimliyi məlumdur. "Ən yaxşı direktor" müsabiqəsi hər il Gürcüstanın Təhsil və Elm Nazirliyinin dəstəyi və Müəllimlərin Peşə İnkişafı üzrə Milli Mərkəzin təşkilatçılığı ilə keçirilir. Müsabiqədə Gürcüstanın ictimai məktəb direktorları iştirak edirlər.

2022-ci ilin ən yaxşı məktəb direktoru Xaşuri şəhərinin 1 saylı ictimai məktəbinin direktoru Moris Dandurişvili seçilib. İkinci yerə Tbilisi şəhər 200 saylı ictimai məktəbin direktoru Marine Uçmaçuridze, üçüncü yerə isə Axmeta bələdiyyəsinin Dumasturi kənd ictimai məktəbinin direktoru Rusudan Borçaşvili layiq görülüb.

Qalib və finalçılar İsveçrəyə səfər edəcəklər, onlar Avropa Nüvə Araşdırmaları Mərkəzinin (CERN), Sürix gimnaziyası və pedaqoji universitetin qonağı olacaqlar. Qalib direktorların işlədiyi məktəblərə isə virtual laboratoriyalar hədiyyə ediləcək.

Müsabiqə komissiyasının tərkibində Gürcüstanın Təhsil və Elm Nazirliyinin, Gürcüstan Parlametinin Təhsil Komitəsinin, Təhsilin Keyfiyyətinin İnkişafı üzrə Milli Mərkəzin nümayəndələri olublar. Namizədlərin qiymətləndirilməsi prosesində Gürcüstan Pedaqoqlar İttifaqının nümayəndələri, ictimai məktəb direktorları da iştirak ediblər.

Mənbə: etaloni.ge

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"

Redaktor:
Azər MUSAOĞLU
Yayım direktoru:
Hacı BƏKİROĞLU
Qrafik dizayn:
Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.